*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 73-78* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.2.73*

# Ədəbi antropologiya: mətnə antropoloji yanaşma

**Şəhanə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: shahane89@gmail.com

**Annotasiya.** Məqalədə antropologiyanın yeni istiqamətlərindən olan ədəbi antropologiyanın meydana gəlməsi və mətnə antropoloji yanaşmanın əsasında duran məsələlərdən bəhs edilib. Dünya ədəbiyyatşünaslığında meydana çıxan yeni yanaşmalar bədii mətnə məhdud çərçivədə yox, multi-disiplinar kontekstdə yanaşmağı təbliğ edir. Mətnin antropoloji tədqiq metodu ilə təhlili mətnin estetik fakt kimi mövcudluğundan savayı, özündə daşıdığı etnik, sosial, psixoloji, mədəni kodların əhəmiyyətini irəli çəkir. Bədii mətnin poetik xüsusiyyətləri də məhz antropoloji fonda öyrənilir. Məqalədə, həmçinin Qərb və rus ədəbiyyatşünaslığında aparılan mətn antropologiyasına dair tədqiqatların fərqli cəhətləri qeyd edilmiş, Azərbaycan ədəbiyyatşünaslığında mətnin antropoloji metodla tədqiqinə dair mövcud araşdırmalar barəsində məlumat verilmişdir. Həmçinin günümüzdə ədəbi antropologiyanın daha çox mədəni antropologiyanın tərkib hissəsi kimi öyrənilməsi tendensiyasının müşahidə olunduğu diqqətə çatdırılmışdır.
**Açar sözlər:** ədəbi antropologiya, mətn, etnoqrafiya, reseptiv tənqid, müəllif

**Məqalə tarixçəsi:** göndərilib – 18.09.2023; qəbul edilib – 26.29.2023

# Literary anthropology: anthropological approach to the text

**Shahane Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi
E-mail: shahane89@gmail.com

**Abstract**. The article discusses the emergence of literary anthropology, which is a new direction of anthropology, and the issues underlying the anthropological approach to the text. New approaches emerging in world literary studies promote approaching the literary text in a multidisciplinary context rather than in a limited framework. The analysis of the text with the method of anthropological research emphasizes the importance of the ethnic, social, psychological, and cultural codes that the text carries, apart from its existence as an aesthetic fact. The poetic features of the literary text are also studied in the anthropological background. The article also mentions the different aspects of the text anthropology research conducted in Western and Russian literary studies, and provides information about the existing studies on the anthropological method of text research in Azerbaijani literary studies. Also, it has been brought to attention that nowadays the tendency to study literary anthropology more as a part of cultural anthropology is observed.
**Keywords:** literary anthropology, text, etnography, reader-response criticism, author

**Article history:** received – 18.09.2023; accepted − 26.29.2023

## Giriş / *Introduction*

Zaman-zaman bədii mətn müxtəlif tədqiq üsulları vasitəsilə təhlil edilmiş, "mətn analizindən diskurs" analizinə [19] qədər gəlib çıxmışdır. Mətn bədii təxəyyül məhsulu olmaqla yanaşı, həm də özü-özlüyündə potensial informasiya mənbəyidir. Burada həm insan şüurunun təkamül prosesini, müəyyən tarixi mərhələdə onu məşğul edən məsələlər və problemlərini aydın görmək olar. Çünki müəllif dolayısı ilə və ya bilavasitə mövcud olduğu cəmiyyəti əks etdirir və müəllifin ortaya qoy-duğu mətn cəmiyyətin şüurunun nə ilə məşğul olduğuna güzgü tutur. "Filologiya elmlərinin metodologiyasının daim mənəvi-fəlsəfi baxımdan açıqlanmağa ehtiyacı olduğunu" [17] vurğulayan fikirlər də ədəbiyyatın təkcə ədəbi-nəzəri kontekst daxilində yox, daha geniş miqyasda öyrənilmə-sini vacib edir. Ədəbiyyatın əsas mövzusu olan insan və onun daxili aləmi, cəmiyyətlə münasibət-ləri də bədii məhsul olmaqla yanaşı, müəyyən sosial, psixoloji, tarixi inkişafın əksidir.

## Əsas hissə / *Main part*

Dünya ədəbiyyatşünaslığında meydana çıxan yeni tendensiyalar da mətnə birtərəfli yanaşmır, ədəbi əsəri təcrid olunmuş şəkildə öyrənmə dövrünün bitdiyini elan edir. Ən yeni ədəbiyyatşünaslıq tədqiqatlarında mətn dövrünün yuxarıda sözügedən sosial, psixoloji, mədəni, siyasi konteksti ilə birgə tədqiqata cəlb edilir.

Hər yeni dövr, mərhələ öz mətnini ortaya qoyur və müvafiq olaraq yeni mətnlərə yeni baxış bucağı, humanitar elmlərin yeni tendensiyaları formalaşır. Mətni şərh edərkən həyatın özünü şərh etmək ehtiyacı mətni sakral bir nəsnə olmaqdan uzaqlaşdıraraq "yerə endirir", daha praktiki nəticələr əldə etməkdən ötrü bədii mətn-real həyat paralellərini daim diqqətdə saxlayır. Mətnə antropoloji yanaşma da, düşünürük, bu ehtiyacdan doğur: insanın, daha dar anlamda fərdin və cəmiyyətin, sosial mühitin bədii mətndə əksinin əsasında duran faktlar mətndən təcrid olunmamalı, mətn təxəyyül məhsulu olmaqla yanaşı, insan haqqında bilgiləri özündə toplayan bir sistem kimi öyrənilməlidir.

Mətnin interpretasiyası zamanı linqvistika, tarix, psixologiya, fəlsəfə və s. kimi müxtəlif sahələrlə yanaşı, antropologiya elmi də bizim köməyimizə gəlir: bu elmin əsas müddəalarına söykənən antropoloji təhlil metodu isə insan və təbiət, insan və cəmiyyət arasında münasibətlər sistemini, insanın müxtəlif zaman və məkandan asılı olaraq dəyişdiyi, formalaşdığı yolu və məqam-ları, davranış xüsusiyyətlərini, mədəni inkişafının müxtəlif mərhələlərini daha dərindən öyrənir.

Antropologiya geniş bir elm sahəsi olub müxtəlif istiqamətləri: tarixi antropologiya, etnik antropologiya, sosial antropologiya, mədəni antropologiya, fiziki antropologiya, fəlsəfi antropo-logiya və s. özündə birləşdirir. Müxtəlif mənbələrdə də bu istiqamətlər çox vaxt ortaq şəkildə tətbiq edilir. Çünki etnik antropologiyanı mədəni düşüncə tarixindən, mədəni düşüncəni fəlsəfi təfəkkürdən ayrı öyrənmək mümkün deyil.

İnsanı bioloji növ kimi araşdıran antropoloji istiqamətlərdən fərqli olaraq, ədəbi antropologiya insan təxəyyülü və fantaziyalarının mətnə tətbiqinin antropoloji əsasını öyrənir. Təbii ki, bu zaman insanın psixoloji, sosial, fiziki, etnik xüsusiyyətləri də nəzərə alınır. Lakin bu məqamların məhz bədii mətndə hansı səviyyədə öz əksini tapması, insanın təxəyyül süzgəcindən keçirərək mətn halına salması bizi maraqlandıran məsələlər olacaqdır.

Sistemli bir elm kimi yarandığı ilk dövrlərdə antropologiya insanı daha çox bioloji və tarixi varlıq kimi öyrənsə də, inkişafının növbəti mərhələlərində ənənəvi istiqamətlərlə yanaşı, yeni istiqamətlərlə zənginləşdi. XVI əsrdən antropologiyanın fiziki anlamdan uzaqlaşması – "anatomiya

müstəvisindən ruh müstəvisinə" [13, s.12] keçməsi insanın daxili aləminin, yaşantılarının da bu elmin predmeti olmasına səbəb oldu. Əslində bu termini ilk dəfə istifadə edən Aristotel də "antropologiya" sözünü "insan təbiətinin mənəvi tərəfini öyrənən" elm sahəsini adlandırmaq üçün istifadə etmişdi. Rusiya və keçmiş Sovet ölkələrində antropologiya adı altında əvvəllər yalnız insanın fiziki xüsusiyyətləri və quruluşu tədqiq edilsə də, Qərb ədəbiyyatşünaslığının təsiri ilə humanitar elm sahələrinin müxtəlif istiqamətlərində də antropoloji tədqiq metodundan istifadə edilməyə başlanıldı. 1860-cı illərdə Böyük Britaniyada meydana çıxan antropoloji məktəbin banisi Eduard Börnet Teylor, davamçıları Endryü Lanq, Ceyms Frezer öz tədqiqatlarında müxtəlif xalqların maddi-mənəvi nümunələrində olan oxşarlıqları insan təbiətinin, psixologiyasının, düşüncə tərzinin yaxın olması ilə izah edirdilər.

Folklorşünaslıq və etnologiyada ayrıca məktəb kimi diqqəti cəlb edən antropoloji məktəb insan davranışlarını izah edərkən dini izahdan uzaqlaşaraq, sırf mədəni nümunələr əsasında insanlar və xalqlar arasında oxşar və fərqli cəhətləri ortaya qoyurdular. Ədəbiyyatşünaslıqda isə tədqiq metodu kimi istifadə edilən bu istiqamət demək olar ki, özündən əvvəlki və sonrakı bir çox ədəbi cərəyan və məktəblərin mərkəzi mövzusunu təşkil edib. Çünki "bədii qəhrəman", "bədii obraz", "tip və prototip", "müəllif və qəhrəman", "insan konsepsiyası" və s. kimi məsələlər zaman-zaman müxtəlif ədəbi məktəb və cərəyanların tədqiq predmetini təşkil etmişdir. Mətni, o cümlədən ədəbi qəhrəmanı, müəllifi, obrazlar sistemini ayrıca struktur elementi kimi öyrənən strukturalizm və müxtəlif xalqların adətlərini, mifologiya və folklorunu tədqiq edən mifoloji məktəb daxilində də antropoloji təhlilin elementlərini müşahidə etmək mümkündür. Bu baxımdan Klod Levi-Strossun struktur antropologiya nəzəriyyəsi də antropoloji elementlərin strukturunu öyrənmək istiqamətində etnoqrafiya, dilçilik, psixologiya, mifologiya kimi sahələrdən istifadə edirdi. Antropoloji tədqiq metodu nə qədər struktural təhlilə yaxınlaşırsa, bir o qədər də fərqli cəhətlər meydana çıxır. Bu baxımdan Levi-Strossun struktur antropologiyası ilə mətnə ümumi antropoloji yanaşmanı qarışdırmaq olmaz. Mətnin antropoloji təhlili haradasa daha qlobal, humanitar və təbiət elmləri sisteminin qovşağında yerləşərək, daha çox fəlsəfi dünyagörüşünə əsaslanır, fəlsəfi dünyagörüşləri – onların yaxınlaşması və toqquşması məqamlarını insan davranışlarında müşahidə edərək sistem halına salmağa çalışır. Ədəbi antropologiya istiqaməti nisbətən yeni olub bədii mətnlərdə insanın və insan psixologiyasının, davranış qaydaları və vərdişlərinin təqdimi, xarakteristikası, müəllif və oxucu zənciri və bu kimi bir çox məsələləri əhatə edir. Nəzərdən keçirdiyimiz tədqiqatlarda belə bir mənzərə ilə qarşılaşırıq ki, rus və keçmiş SSRİ ölkələrinin ədəbiyyatşünaslığında ədəbi antropologiya dedikdə daha çox obraz seçimi, tarixi obrazların bədii müstəvidə təqdimi, konkret müəllifin bədii mətnlərində insan konsepsiyalarının araşdırılması məsələləri üstünlük təşkil edir. Sergey Kozlovun "Ədəbi antropologiya və personajın poetikası", V.Lebedevin "Antropoloji diskursun bədii janrlar sisteminə təsiri", Aleksandr Babukun "XIX əsr ədəbiyyatında uşaqlığın bədii antropologiyası", Tatyana Zaysevin "A.P.Çexovun bədii antropologiyası: ekzistensial aspekt (Çexov və Kirkeqor), Olqa Rodionovanın "A.P.Çexovun antropoloji konsepsiyası: rekonstruksiya cəhdi", Marina Şalinanın "F.M.Dostoyevskinin yaradıcılığında antropoloji problematika", Olqa Piçuqinanın "Dostoyevskinin pravoslav antropologiyası (şəxsiyyət konsepsiyası)" və s.) kimi tədqiqatlarda daha çox bədii mətndəki müxtəlif motiv və detalların antropoloji əsası öyrənilir. Qərb ədəbiyyatşünaslığında isə mənzərə bir az fərqlidir. Burada daha çox ədəbiyyat və antropologiyanın ortaq məqamları, ədəbi antropologiyanın fəlsəfi mahiyyəti, müəllif və oxucu statusunun antropoloji aspekti tədqiqatların nüvəsini təşkil edir. Volfqanq İzerin "Prospeksiya: oxucu reaksiyasından ədəbi antropologiyaya", "Təxəyyüldəki və təsəvvürdəki ədəbi antropologiyanın sərhədlərini cızarkən", M.Kohenin "Antropologiyaya yeni yanaşmalar: ədəbi antropologiyaya töhfələr", Rouz De Ancelisin "Antropologiya və ədəbiyyat arasında: interdisiplinar diskurs", Klifford Girtzin "Antropoloq müəllif kimi", C.Spredleyin "Ədəbiyyatdan görünən antropologiya: mədəniyyətlərarası perspektivlər", H.Vulfun "Antropoloq yazıçı kimi: 21-ci əsrdə janrlar və kontekstlər", Mairid Nik Krais və Loren Sebestian

Fornerin "Ədəbi antropologiya: sub-disiplinar kontekst" kimi tədqiqatlarında mifologiya, dilçilik, etnoqrafiya, psixologiya, fəlsəfə, kulturologiya kimi sahələrin ədəbiyyata, ədəbi-nəzəri fikrə inteqrasiyasının əyani nümunələrini görmək olur.

Azərbaycan ədəbiyyatşünaslığında da bədii obrazların mənşəyi, bədii ədəbiyyatda insan konsepsiyaları, tip-prototip, etnik məsələlərin bədii mətndə əksi, folklor və mifologiyada insan dünyagörüşünün formalaşma mərhələləri kimi mövzular daim tədqiqata cəlb edilib. "Antropologiya" termini başlığa çıxarılmasa da, əvvəldə də qeyd etdiyimiz kimi, insan və onun bədii ədəbiyyatda əksi məsələlərinə dair kifayət qədər araşdırmalar mövcuddur. İsmayıl Vəliyevin "Ədəbiyyatda insan konsepsiyası, tarixi təşəkkülü və inkişaf mərhələləri", Nərgiz Paşayevanın "İnsan bədii tədqiq obyekti kimi (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)", Hicran Nəsibovanın "Müasir Azərbaycan lirikasında insan konsepsiyası (1960-1980-ci illər)", Yeganə Abdullayevanın "Rəsul Rza lirikasında insan və dünya problemi", Məlahət Babayevanın "Hüseyn Cavid dramlarında tarixi şəxsiyyətlərin bədii obrazları", Adilxan Bayramovun "Səməd Vurğun yaradıcılığında insan: millilik və ümumbəşərilik", Səadət Cahangirzadənin "Hüseyn Cavidin yaradıcılığında insan konsepsiyası (1920-ci illərə qədərki dövr)" və bir sıra bu tipli tədqiqatlarda ayrı-ayrı müəlliflərin bədii mətnlərində izlənmiş insan konsepsiyaları müxtəlif bədii obrazların simasında geniş araşdırılmışdır.

Bədii mətndə antropoloji elementlərin təhlili zamanı Azərbaycan ədəbi-bədii fikrinin ilkin mənbələrinə müraciət, məhz bu mənbələrdə xalqın tarixi, mədəni kanonları, davranış etiketləri və s. haqqında əhatəli bilgilərin toplanmasından irəli gəlir. Niyazi Mehdiyevin "Orta əsr Azərbaycan mədəniyyətinin bəzi etnik əsasları" [9], Rəhman Bədəlovun "Qəhrəmanlıq eposu etnik tarixin ifadəsi kimi" [16] , Arif Acaloğlunun "Türk xalqlarının epik ənənəsi və mifologiya (Qəhrəmanlıq dastanlarında epik dünya strukturunun nəzəri aspektləri)" [3], Arif Məmmədovun "Stereotip davranış və obraz yaradıcılığı" [11], Asif Hacılının "Mifopoetik təfəkkür fəlsəfəsi" [5], Cəlal Bəydilinin "Türk mifoloji obrazlar sistemi: struktur və funksiya" [12], Pərvanə İsayevanın "Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu" [6], Rəhilə Qeybullayevanın "Müqayisəli ədəbiyyat və sosial antropologiya" [15] kimi tədqiqatları milli-etnik xüsusiyyətlərin və davranış modellərinin, dünyanın dərkinin mifik təfəkkürdə əksi və bu əksolunmanın ədəbi müstəvidə təhlili baxımından diqqəti cəlb edir.

Azərbaycan ədəbiyyatşünaslığında antropoloji aspektdə aparılan tədqiqlərin böyük bir hissəsi "Kitabi-Dədə Qorqud" eposunun araşdırılması istiqamətində gedib. Nizami Cəfərov "Azərbaycan ədəbiyyatı tarixinin etnokulturoloji sistemi: təsəvvürlər, mülahizələr..." adlı məqaləsində də məhz xalqın-etnosun öz-özünü dərkinin ilkin mərhələsinin əsasında "Dədə-Qorqud"dan "Koroğlu"ya aparan (və "Koroğlu" ilə davam edən) ideya-estetik axın"ın dayandığını vurğulayır [4]. Bu baxımdan Kamal Abdullanın "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı ardıcıl tədqiqatları ("Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar" [1], "Mifdən yazıya və ya Gizli Dədə Qorqud" [2]), Rəhilə Qeybullayevanın "Ədəbiyyatda darvinizm və ya sosial mədəniyyət modelləri orta əsrlər eposu aynasında ("Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi") adlı dərs vəsaiti [14], Rüstəm Kamalın "Kitabi-Dədə Qorqud": nitq janrları və davranış poetikası" [8] monoqrafiyası bu baxımdan xüsusi diqqətəlayiqdir.

Tahirə Məmmədin "Milli kimlik və bədii mətn" [10] monoqrafiyası Azərbaycan ədəbiyyatşünaslığı üçün tamamilə yeni bir mövzu olan bədii imic və milli kimlik məsələsinin bədii mətndə əksi, türk imicinin Azərbaycan ədəbiyyatında təsviri və təqdimi məsələlərinin mərhələli və sistemli şəkildə (Nizami Gəncəvi yaradıcılığı, Azərbaycan romantizmi, sovet dövrü Azərbaycan ədəbiyyatı, müstəqillik ərəfəsi və postsovet dövrü Azərbaycan ədəbiyyatında) araşdırılmasına həsr edilmişdir.

Antropoloji tədqiq metodu təkcə insanı və onun bədii təqdimini öyrənməklə kifayətlənmir. Bədii mətndə mövcud olan insanı təcrid edilmiş şəkildə öyrənmək müasir ədəbiyyatşünaslığın müəyyənləşdirdiyi istiqamətlərə uyğun deyil. Müasir ədəbiyyatşünaslığın "təkcə ədəbiyyat haqqında elm olmaqdan çıxaraq müasir fəlsəfi təfəkkürün bir növünə çevrilməsi" [18] tezisi də ədəbiyyatşünaslıq tədqiqatlarının sərhədlərinin humanitar elmin demək olar ki, bütün sahələrinə qədər

uzandığını təsdiq edir. Burada qeyd etmək yerinə düşər ki, humanitar elm sahələri və ümumilikdə humanitar təfəkkürün insanın öyrənilməsində insan haqqında elm olan antropologiyaya və bu sahədə olan tədqiqatlara da müraciət etməsi qaçılmazdır.

Günümüzə qədər aparılan araşdırmalara nəzər saldıqda mətnin antropoloji təhlilinin fərqli yanaşmalarla aparıldığının şahidi ola bilərik. Bir qədər ümumiləşdirsək, bu yanaşmaların daha çox iki istiqamətdə cəmləndiyini görərik: 1. Reseptiv estetikanın ilk və mühüm nümayəndələrindən olan Volfqanq İzerdən başlayaraq mətnin özünə bütövlükdə antropoloji fakt kimi yanaşmaq; bəşəriyyətin şüurunda təxəyyülə, dolayısı ilə bədii ədəbiyyata olan ehtiyacdan yaranmış mətnlərin daha geniş aspektdən tədqiqi. 2. Mətnin obraz və personajlarının antropoloji xüsusiyyətlərini önə çəkən, insanın (istər fərd, istərsə də cəmiyyətin) bədii mətndə təsvirinin, davranış tərzinin antropoloji köklərini araşdıran aspekt.

Volfqanq İzer "Prospeksiya: oxucu reaksiyasından ədəbi antropologiyaya" adlı tədqiqatında ədəbiyyata "kommunikativ medium" [7] kimi yanaşır və bu səbəbdən antropoloji tədqiq üsulunun cəmiyyət, bir az da dəqiq götürsək insan və mətn arasında olan münasibətlərin daha sərrast təsviri üçün çox mühüm əhəmiyyətə malik olduğunu qeyd edir. Çünki ədəbiyyatın, ədəbi mətnlərin bir fakt kimi mövcud olması insanın müəyyən tələbatından irəli gəlir: artıq psixoloji, idraki cəhətdən müəyyən bir pilləyə gəlib çatmış şəxsin öz təcrübələrini bölüşmək, yaşantılarını paylaşmaq ehtiyacının yaranması antropologiya və ədəbiyyatın ən birinci ortaq nöqtəsidir, – deyə bilərik.

Reseptiv estetikanın və reseptiv tənqidin meydana gəlməsi ilə oxucu da müəllif və mətn səviyyəsinə qalxaraq mətn interpretasiyasında mühüm zəncirə çevrildi. Əbəs yerə deyil ki, məhz reseptiv estetikanın nümayəndələri, xüsusilə Roman İnqarden, Volfqanq İzer ədəbi antropologiyanın mahiyyətini araşdırmağa, oxucunun ayrıca kateqoriya kimi antropoloji mənşəyini tədqiq etməyə xüsusi diqqət ayırmış, ədəbiyyatın antropoloji funksiyasını vurğulamışlar.

## Nəticə / *Conclusion*

Mətnə mövcud antropoloji yanaşmaları (hermenevtik antropologiya, struktur antropologiya, koqnitiv antropologiya) nəzərdən keçirsək görərik ki, antropoloji tədqiq metodu mətnin kulturoloji fakt kimi mövcudluğu üzərində daha çox durur, insanın hansı mədəni etapda, fəlsəfi şüurunun hansı mərhələsində olduğunu bilavasitə bədii mətnlər üzərində araşdırır. Çünki müasir dünyada və humanitar düşüncədə mədəni faktın mövcudluğunun elmi əsası və bu faktın insan həyatında oynadığı rol daha çox diqqət mərkəzindədir. İç-içə mövcud olan anlayışlar yalnız kompleks şəkildə öyrənilərkən daha dəqiq və dolğun faktlar üzə çıxdığından ədəbi antropologiyanı mədəni antropologiyanın tərkib hissəsi kimi öyrənmək, düşünürük ki, daha düzgün yoldur.

## Ədəbiyyat / *References*

1. Abdulla, K. "Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar. – Bakı: Sim-sim, – 2002.
2. Abdulla, K. Mifdən yazıya və yaxud Gizli Dədə Qorqud. – Bakı: Mütərcim, – 2009.
3. Acalov, A. Türk xalqlarının epik ənənəsi və mifologiya (Qəhrəmanlıq dastanlarında epik dünya strukturunun nəzəri aspektləri): /filologiya üzrə fəlsəfə doktoru dis./ – Bakı, – 2011.
4. Cəfərov, N. Azərbaycan ədəbiyyatı tarixinin etnokulturoloji sistemi: təsəvvürlər,mülahizələr... https://edebiyyatqazeti.az/news/sience/9209-azerbaycan-edebiyyati-tarixinin-etnokulturoloji-sistemi-tesevvurler-mulahizeler
5. Hacılı, A. Mifopoetik təfəkkür fəlsəfəsi. – Bakı: Mütərcim, – 2002.
6. İsayeva, P. "Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. – Bakı: Elm və təhsil, – 2016.
7. Iser, W. Prospecting: From Reader Response to Literary Anthropology / https://polit.ru/article/2009/02/27/izer/

8. Kamal, R. “Kitabi-Dədə Qorqud”: nitq janrları və davranış poetikası. – Bakı: Nurlan, – 2013.
9. Mehdiyev, N. Orta əsr Azərbaycan mədəniyyətinin bəzi etnik əsasları. Azərbaycan filologiyası məsələləri, II buraxılış. – Bakı: Elm, – 1984.
10. Məmməd, T. Milli kimlik və bədii mətn. – Bakı: Elm və təhsil, – 2020.
11. Məmmədov, A. Stereotip davranış və obraz yaradıcılığı / Azərbaycan ədəbiyyatının tarixi poetikası. I kitab. – Bakı: Elm, – 1989.
12. Məmmədov, C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. – Bakı: Mütərcim, – 2007.
13. Məmmədov, H., Tağıyev, A. Antropologiya (dərslik). – Bakı: – 2014.
14. Qeybullayeva, R. Ədəbiyyatda darvinizm və ya sosial mədəniyyət modelləri orta əsrlər eposu aynasında (“Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi”). – Bakı: Mütərcim, – 2016.
15. Qeybullayeva, R. Müqayisəli ədəbiyyat və sosial antropologiya / Ədəbiyyat nəzəriyyəsi:inkişaf mərhələləri və problemləri: 2 clddə. II cild. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı fondu,– c.2. – 2018. – 400 səh.
16. Бадалов, Р. Героический эпос как выражение этнической истории. Azərbaycan filologiyası məsələləri, II buraxılış. – Bakı: Elm, – 1984.
17. Козлов, С. Литературная антропология и поэтика персонажа. https://www.gramota.net/articles/issn_1997-2911_2013_7-1_24.pdf
18. Петрович, И.И. Постструктурализм.Деконструктивизм. Пост модернизм. http://library.lgaki.info:404/2017/%D0%98%D0%BB%D1%8C%D0%B8%D0%BD%20%D0%98_%D0%9F%D0%BE%D1%81%D1%82%D1%81%D1%82%D1%80%D1%83%D0%BA%D1%82%D1%83%D1%80%D0%B0%D0%BB%D0%B8%D0%B7%D0%BC.pdf
19. Чернявская, В. От анализа текста к анализу дискурса: Немецкая школа дискурсивного анализа. 2003, №3. ФИЛОЛОГИЧЕСКИЕ НАУКИ. – Москва. Стр.68-76 / file:///C:/Users/Admin/Downloads/59391542%20(1).pdf

## Литературная антропология: антропологический подход к тексту

**Шахане Алиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: shahane89@gmail.com

**Резюме.** В статье рассматривается возникновение литературной антропологии как нового направления антропологии, а также вопросы, лежащие в основе антропологического подхода к тексту. Новые подходы, возникающие в мировом литературоведении, способствуют подходу к литературному тексту в междисциплинарном контексте, а не в ограниченных рамках. Анализ текста методом антропологического исследования подчеркивает важность этнических, социальных, психологических и культурных кодов, которые несет в себе текст, помимо его существования как эстетического факта. Поэтические особенности художественного текста изучаются и на антропологическом фоне. В статье также упоминаются различные аспекты исследований антропологии текста, проводимых в западном и российском литературоведении, и приводятся сведения о существующих исследованиях антропологического метода исследования текста в азербайджанском литературоведении. Также обращено внимание на то, что в настоящее время наблюдается тенденция изучать литературную антропологию скорее как часть культурной антропологии.
**Ключевые слова:** литературная антропология, текст, этнография, рецептивная критика, автор